UOT 94(479.24)

XATİRƏ AĞAYEVA
Tarix üzrə fəlsəfə doktoru
AMEA Abbasqulu Ağa Bakıxanov adına
Tarix və Etnologiya İnstitutunun baş elmi işçisi
jabrayilovajamila@gmail.com

QƏRBİ AZƏRBAYCANDA TARİXİ ABİDƏLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/111/267-277

Qərbi Azərbaycan həm tarixi, həm də mədəni irs baxımdan zəngin bir bölgə olaraq, müxtəlif dövrlərdə mədəniyyətlər və sivilizasiyaların qovuşduğu mərkəzlərdən biri olmuşdur. Bu ərazidəki abidələr, məscidlər, məqbərələr, saraylar və digər memarlıq nümunələri regionun zəngin tarixini və mədəni irsini əks etdirir. Tarixi və mədəni irsin mühafizəsi bu günkü dövrün əsas məsələlərindən birinə çevrilmişdir. Bu məqalədə Qərbi Azərbaycandakı abidələrin tarixi və memarlıq xüsusiyyətləri, onların qorunub saxlanması, erməni soyqırımı və deportasiya hadisələrinin abidələrin taleyinə təsiri araşdırılmışdır. Eyni zamanda, ermənilərin Cənubi Qafqazda mülkiyyət iddiaları ilə bağlı tarixi faktlara və İrəvanda, Zəngəzurda və Dərələyəz mahalında baş vermiş tarixi dəyişikliklərə toxunulmuş, mədəni irsin məhv edilməsi ilə bağlı əhəmiyyətli məlumatlar təqdim edilmişdir.

Açar sözlər: Qərbi Azərbaycan, Tarixi abidələr, Alban memarlığı, Erməni vandalizmi

Giriş. Qərbi Azərbaycan tarix boyu türklərin yaşadığı vətən olmuş və bunun sübutunun bariz nümunəsi kimi həmin ərazidə mövcud olan tarixi-mədəniyyət abidələri göstərilə bilər. İrəvan və ətrafı, xüsusən Osmanlı, Səfəvi, Qacar və Elxani dövrlərindən qalan abidələrlə zəngindir. Göy məscid, Hacı Novruzəli bəy məscidi, Rəcəb Paşa məscidi və digər tarixi məkanlar, bu regionun memarlıq və dini mədəniyyətinin əsas təzahürləridir. Bu abidələr yalnız yerli əhalinin həyatına təsir etməklə qalmamış, həm də dövrün sosial və mədəni dəyişikliklərini işıqlandırmışdır. Azərbaycan xalqının zəngin keçmişini və müasir baxışlı vəhdətini özündə ehtiva edən bu tarixi miraslar ötən əsrlər ərzində plagiata məruz qalmış, plagiata məruz qoya bilmədikləri isə tamamilə yer üzündən silinmişdir. Tarixlərini və keçmişlərini dəyişdirdikləri kimi, məskunlaşdıqları torpaqların yerli əhalisinin tarixinə də əl uzadan bu xalq, günümüzdə olan yadigarlarını öz caynaqlarında saxlamaqdadır. 3 avqust 2022-ci ildə cənab prezident İlham Əliyev tərəfindən yaradılan Qərbi Azərbaycan İcması adıçəkilən bu ərazinin tarixi-mədəniyyət abidələrinin öyrənilməsində, onların beynəlxalq ictimaiyyətə çatdırılmasında və həmçinin abidələrin həqiqi və real mənsubluğunun bəyan edilməsində ciddi əmək sərf etməkdədir.

Dərələyəz mahalı. Digər ərazilər kimi, Dərələyəz də zəngin tarixi abidələrə ev sahibliyi etmişdir. Tədqiqatçı Həsən Mirzəyev qeyd edir ki, Şərurdan Qaranlıq (Martuni) rayonuna qədər 10-a yaxın daş körpü olmuşdur. Bu körpülər qədim İpək Yolu üzərində yerləşirdi. Həmin yol el arasında Səlimabad adlanan Səlim gediyi (Dərələyəz Ağkənd) ərazisindən keçirdi ki, bu da bölgədə bir neçə karvansaranın mövcud olmasını təmin etmişdir. Ağkəndin Səliç karvansarası Əbu Səid xan Bahadur tərəfindən inşa olunmuş, memarlıq baxımından türk zənginliyini əks etdirən üç hissəli mədəniyyət nümunəsi kimi diqqəti cəlb etmişdir. Kamil Dərələyəzlinin qeyd etdiyi Ağkənd karvansarası, eyni zamanda "Ağkəndin tək karvansarsı" adı ilə tanınır və İpək Yolu üzərində yerləşən ən önəmli mədəniyyət abidələrindən biridir. Bu yolun strateji əhəmiyyəti sayəsində bölgədə həmçinin Alxanpəyəsi körpüsü kimi mühüm tikililər də mövcud olmuşdur. Hazırda dəyişdirilmiş formada istifadədə olan bu körpü 30 metr uzunluğundadır və dəqiq tarixi məlum olmasa da, orta əsrlərdən günümüzə gəlib çatan türk mədəniyyətinin nümunəsi hesab olunur [1, s.22]. Dərələyəzin digər memarlıq nümunəsi Əmağu kəndi ərazisində, Arpaçayının sahilində yerləşən və tikintisinə 1335-1336-cı illərdə başlanan, sonrakı illərdə hissə-hissə inşası davam etdirilən ibadət-maarif evidir. Tarix boyu erməni soyqırımına səssiz qalanlar arasında yer alan Arpaçayı, özündə azərbaycanlıların həqiqətlərini bu gün də saxlayaraq səbrlə qayıdışı gözləyənlərdən biri kimi təsvir edilir [1, s.42]. Bu məqamda, eyniadlı kənddə tikintisinə 1215-1287-ci illərdə başlanan Arpa körpüsü də dövrün mədəni mühitinin günümüzə çatan mirasıdır.

Dərələyəz tarix boyu müxtəlif dövlətlərin ərazisinə daxil olmuş və böyük miqyaslı tarixi proseslərdə, o cümlədən dini cərəyanlarda, kənarda qalmamışdır. Dərələyəz mahalındakı memarlıq abidələri bu tarixi və mədəni proseslərin izlərini ən qabarıq şəkildə göstərir. Dərələyəzin Ayısəsi kəndində yerləşən üç hissəli monastır, azərbaycanlıların güclü inancını və memarlıq ənənələrini tarixə və mədəniyyətə töhfə olaraq saxlamışdır. Ayısəsi monastırı üç hissədən ibarətdir və hər bir hissə fərqli dövrlərdə inşa edilmişdir. Birinci hissə 7-8-ci əsrlərdən qalma Alban memarlığının günümüzə yadigarıdır. İkinci hissə, daha gözəl və dəbdəbəli olanı isə 10-11-ci əsrə aiddir. Nəhayət, üçüncü hissə 13-cü əsr Azərbaycan memarlıq məktəbinin nümunəsidir. Babacan Mehdiyev vurğulayır ki, bu abidə 1960-cı illərdə ermənilər tərəfindən saxtakarlıqla bərpa adı altında dəyişdirilmişdir. Orta əsrlər memarlıq nümunəsi olaraq, bu monastırla yanaşı, Dərələyəz mahalının qədim Əyər kəndində yerləşən Dədəli körpüsü də xüsusilə qeyd olunmalıdır. Dərələyəz həm də sirlərlə dolu bir vətəndir. Alban mədəniyyətinin yadigarı olan və 4-5-ci əsrlərdə tikilmiş Dəmrov piri (qaya parçasından yonulmuş) hələ də açılmamış sirləri özündə birləşdirir [4, 41s.].

Qərbi Zəngəzur əraziləri, oğuz-türk abidələrinin çoxluğu ilə diqqət çəkir. Tarixin yaratdığı bu maddi sübutlar, bu ərazilərin bir zamanlar oğuz-türk yurdu olması ehtimalını təsdiq edir. Bu abidələr əsasən Qafan, Mehri, Qarakilsə və Gorus rayonlarının ərazilərində yerləşir. Qədim qəbiristanlıqlar, məqbərələr, məscidlər, qalalar, daş fiqurlar və süjet xarakterli oymalar ermənilər tərəfindən dağıdılmasına baxmayaraq, bu abidələrin bir çoxu bu günə qədər qorunub saxlanmışdır.

Ermənilər, xristianlıq dövrünə aid olmayan abidələri bazilika, sovmə, qəbirüstü tikililər və qurğular, inzibati binalar, xatirə abidələri, hətta yeraltı qazmalar və kahalar kimi adlandıraraq, bu ərazilərdə ermənilərin ulu əcdadlarının yaşadıqlarını "sübut" etməyə çalışırlar.

Qərbi Zəngəzurun memarlıq abidələri arasında sayca ən çox olan Alban dövrü kilsələri. Monastırları və digər inanc və ibadət yerləri, eləcə də xatirə abidələrinin albanlara aid olduğu ermənilər tərəfindən birmənalı şəkildə inkar edilir. Tarixdə daha çox Qafqaz Albaniyası kimi tanınan və min illik tarixi olan bir dövlətin mədəniyyətinin və tarixinin inkar edilməsi isə, əlbəttə, erməni saxtakarlığının bir nümunəsidir. Erməni saxtakarlığı xüsusilə bu ərazilərdə yerləşən memarlıq abidələrində özünü daha çox büruzə verir.

Qərbi Zəngəzurda ermənilər nadir alban dövrü tikililərinin üzərindən bədii ornamental görüntüləri, yazı və simvolları silərək, abidələrin daxili və xarici interyerini dəyişdirərək onları tanınmaz hala salırlar. Bir çox hallarda isə türklərin yaşadıqları qədim inzibati yaşayış məntəqələrini dağıdaraq xarabalığa çevirirlər. Təəssüf ki, Qərbi Zəngəzur ərazilərində 200-dən çox tarixi əhəmiyyətli türk kəndi və şəhəri dağıdılıb. AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov bildirib ki, Qərbi Azərbaycanın əzəli yerli sakinləri Azərbaycan türkləridir, halbuki ermənilər bu ərazilərdə Çar Rusiyasının təşəbbüsü ilə müxtəlif ölkələrdən köçürülərək məskunlaşdırılıblar. Bu səbəbdən, Qərbi Azərbaycanın müxtəlif şəhərlərində məskunlaşan ermənilər dil, ləhcə və xarakter baxımından bir-birlərindən kəskin fərqlənirlər. Məsələn, İrəvanda yaşayan ermənilər Mehridə, Gorusda və Qarabağda yaşayan ermənilərin dillərini çətinliklə anlayırlar. Son bir əsrdə ermənilər Qərbi Zəngəzurda Azərbaycanın mədəni irs nümunələrinin məhv edilməsini davam etdirirlər. Vorotan (Bazarçay, Bərguşadçay) dərəsindəki Köhnə Xot, Köhnə Şinuayr və Köhnə Əlidərə kəndlərinin xarabalıqları döyüş meydanına bənzəyir, sanki burada xeyirlə şərin mübarizəsi aparılıb. Hər bir binanın xarabalığında qəribə və qorxulu bir atmosferin hakim olduğu təəssüratı yaranır, bu da ərazinin keçmişdəki faciəvi hadisələrin izlərini daşıdığını göstərir. Bu kəndlərdə ermənilər tərəfindən 800-dən çox tarix və mədəniyyət abidəsi, yaşayış evləri, məscidlər, Alban dövrü bazilikalar və sovmələr, bədii daş nümunələri, qəbirüstü abidələr, qəbir daşları, at və qoç fiqurları dağıdılaraq yararsız hala salınıb. Azərbaycanın mədəni irs nümunələrindən təmizlənən bu ərazidə yalnız Bazarçay dərəsinin sol yamacında yerləşən Alban memarlığının yadigarı Tatev monastırı öz əzəmətini qoruyub saxlaya bilib.

Keçən əsrin əvvəllərində Rusiya tərəfindən süni şəkildə Cənubi Qafqaz bölgəsinə köçürülən ermənilər, regiondakı alban abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişdirərək saxtalaşdırmış, yəni ermənileşdirmişlər. Bu proses nəticəsində Alban dövrünə aid abidələrin ilkin görkəmi ciddi şəkildə pozulmuş, alban mədəniyyətinin bir çox elementləri itirilmiş və bu mədəniyyət tədricən zəiflədilmişdir.

Rus çarı 1 Nikolayın 1828-ci il 21 mart tarixli Fərmanına əsasən, Azərbaycanın qərbində yerləşən İrəvan xanlığı ləğv edilmiş və onun yerində "Erməni Mahal"ı adlanan yeni bir vilayət yaradılmışdır. Bu vilayətin yaradılmasının əsas məqsədi, İran və Osmanlı sərhədlərində Rusiyaya qarşı baş verə biləcək potensial hərbi hücumların qarşısını almaq üçün Rusiyaya sadiq bir erməni cəbhəsi formalaşdırmaq idi [5].

Azərbaycan torpaqlarında Rusiyanın vilayət yaratma təşəbbüsü ermənilər üçün mühüm bir fürsət oldu. Dövlətçilik ənənəsindən məhrum olan bu xalq üçün belə bir imkan, tarixi məqsədlərinə çatmaq baxımından əhəmiyyətli bir addım idi. Dünyanın müxtəlif ölkələrindən bu ərazilərə köçürülən ermənilər bu hadisəni sevinclə qarşıladılar. Qısa müddət ərzində ermənilər nəinki Qərbi Azərbaycan ərazilərində, həmçinin Qarabağ, Gəncə, Şamaxı və Quba bölgələrində də sürətlə məskunlaşmağa başladılar. Bu tarixi fürsətdən məharətlə istifadə edən ermənilər, Rusiyanın dəstəyi ilə Azərbaycan ərazilərində yerləşdikdən sonra, yerli xalqların tarixini və mədəniyyətini mənimsəməyə çalışdılar.

Tarixi mənbələrə əsasən, antik dövrlərdə və erkən orta əsrlərdə indiki Azərbaycanın bütün bölgələri, Qarabağ da daxil olmaqla, Qafqaz Albaniyası və Atropatena dövlətlərinin tərkib hissəsi olmuşdur. Məhz həmin dövrlərdə memarlıq sənəti bu ərazilərdə yüksək inkişaf səviyyəsinə çatmış və sürətlə irəliləmişdir. Təxminən min illik tarixə malik olan Qafqaz Albaniyasının mövcud olduğu dövrdə Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən Zəngəzur və Dağlıq Qarabağ ərazilərində özünəməxsus quruluşu ilə seçilən alban-xristian dininə aid məbədlər, bazilikalar və sovmələr inşa edilmişdir.

Bu dövr üçün xarakterik olan memarlıq üslubu göstərir ki, həmin vaxt Albaniyada şərq xristianlığına məxsus memarlığın müxtəlif növləri inkişaf etmişdir.

Hələ orta əsrlərdən etibarən bu tarixi həqiqətləri inkar edən ermənilər, alban-xristian abidələrinin divar yazılarını və bəzi bədii ornamentlərini dəyişdirərək, bu abidələrin ermənilərə maxsus olduğu barədə təbliğat aparmışlar. Cənubi Qafqazda mədəni dəyərlərin ermənileşdirilməsində Rusiyanın dəstəyinin mühüm rolu olmuşdur. Faiq İsmayılov qeyd etmişdir ki, 1836-cı ildə Azərbaycanda fəaliyyət göstərən Alban Patriarxat Kilsəsinin ləğv edilməsi və onun mülklərinin erməni Qriqoryan Kilsəsinin tabeçiliyinə verilməsi ilə bağlı rus çarı I Nikolay xüsusi Fərman imzalayıb. Onun sözlərinə görə, XVIII əsrin sonlarından başlayaraq, Alban dövlətinin qərb ərazilərində, daha dəqiq desək, Zəngəzur və Qarabağ regionlarında və Ümumilikdə Qərbi Azərbaycanda ermənilərin sıx məskunlaşması nəticəsində, Alban dövlətçiliyi müstəqilliyini itirmiş və həmin ərazilərin xristian əhalisinin qriqoryanlaşdırılması, yəni ermənileşdirilməsi prosesi başlamışdır.

Bu hadisə ermənilər tərəfindən Alban kilsələrindəki bəzi əlyazmaların erməni dilinə tərcümə edilməsinə və kilsədə saxlanılan bütün sənədlərin orijinal nüsxələrinin yandırılmasına səbəb olmuşdur. Alban dövrünə aid kilsə və monastırların interyerindəki yazılar və bədii daş nümunələri, eləcə də kilsə və monastırların ümumi xarici görkəmi dəyişdirilmişdir. Alban dövrünə aid memarlıq abidələrinin daş və divar rəsmlərində, eləcə də süjet xarakterli oymalarda daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi, hazırda bu abidələrin ermənilər tərəfindən daha çox zərər görməsinə səbəb olur. Birmənalı şəkildə, ermənilər məskunlaşdıqları ərazilərdəki tarix və mədəniyyət abidələri üzərindəki alban-türk ornamentlərinin və simvollarının mövcudluğunu qəbul etmirlər. Çünki onlar. Alban dövrü abidələrini olduğu kimi qəbul etsələr, həmin abidələrin ermənileşdirilməsi mümkün olmazdı.

Təsadüfi deyil ki, əsrlər boyu bir yerdə sülh şəraitində yaşayan alban və türk tayfalarının öz bədii yaradıcılıqlarında bir-birinin mədəni irsindən qarşılıqlı şəkildə bəhrələnmələri, hələ orta əsrlərdən başlayaraq Azərbaycanda multikulturalizmin ənənələrinin mövcudluğuna işarə edir.

Odur ki, elmi ədəbiyyatlarda bəzən Qafqaz Albaniyası dövrü memarlıq abidələrinin alban-türk memarlıq abidələri kimi qeyd olunması təsadüfi hesab edilməməlidir. Çünki bu abidələr üzərində varislik yalnız azərbaycanlılara məxsusdur. Bu barədə görkəmli Qafqazşünas tarixçi alim Y.J. Krupnov yazırdı: "Albaniya tarixinin öyrənilməsi işində heç bir məhdudiyyət və məcburiyyət olmamışdır. Albaniya tarixini müxtəlif ölkələrin tarixçiləri öyrəniblər. Lakin bir şey məlumdur: Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Onlar bu sahədə dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar".

Faiq İsmayılov vurğulamışdır ki, Albaniyada Şərq xristianlığına məxsus memarlığın müxtəlif növləri inkişaf etmişdir. Lakin, Şərq memarlığına aid tikintilər arasında Alban memarlığı özünəməxsusluğu ilə digərlərindən kəskin şəkildə fərqlənirdi. Alban xristianlığının ilk dövrü üçün xüsusilə kilsə

tikintiləri xarakterik olmuşdur. Bu kilsələr, uzunsov ibadət zalına malik birnefli məbədlərdən ibarət olub, onların üstü ikiqatı, sadə yonulmamış daşlarla örtülmüşdür. Albaniyada xristianlıq memarlığı üslubunda dairəvi məbədlər adlı xüsusi memarlıq da inkişaf edirdi və bu üslub yalnız albaniyalılara məxsus idi. Bir çox tədqiqatçılar da təsdiq edirlər ki, bu memarlıq üslubu Cənubi Qafqazda yalnız albaniyalılara aiddir. Çünki xristianlığa qədərki dövrə aid Alban memarlıq abidələrinin daş və divarları üzərindəki elementlər, başqa millət və xalqların daş kitabələrində rast gəlinmir. İndiki dövrdə ermənilər bu abidələrin ermənilərə məxsus olduğunu iddia etsələr də, abidələrin memarlıq quruluşu, forma və ornamentlərin düzülüşü onların iddialarının doğru olmadığını açıq şəkildə ortaya qoyur. Albaniyada dairəvi məbədlərin tikilməsi erkən xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə, bu məbədlər Günəşə ibadət edən albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi və səma cisimlərinə ibadətin xristianlıqla qarışdığı dövrlərdə tikilmişdir.

Bu dövrün memarlıq üslubunun bütün ornamentlərində atəşpərəstliyin təzahürləri və göy cisimlərinə ibadətin motivləri öz əksini tapır. Bu xüsusiyyət erkən xristianlıq dövrü alban xaçlarında da özünü göstərir. Ermənilərin Cənubi Qafqazda alban mədəniyyətini ermənileşdirməklə özlərinə erməni tarixi və mədəniyyəti yaratmaq cəhdləri faktlar qarşısında çox gülünc və əsassız görünür.

Alban dövrü memarlığının ən kütləvi formalarından biri də sovmələrdir. Sovmalar, karvan yolları kənarında kiçik ibadətgah rolunu oynasalar da, əslində memorial tikililərdir. Bu ərazilərdə həm mehrabsız, həm də mehrablı səvmələrə rast gəlinir. Sovmələrin divarları, bir qayda olaraq. zəif naxışlara malik nişan daşları ilə bəzədilir. Karvan yolları üzərində sovmələrin tikilməsində əsas məqsədlərdən biri də insanların səfər zamanı əziyyətli yolçuluqdan sonra dincəlib istirahət etmələrinə, soyuqdan və yağışdan qorunmalarına, axşam düşdükdə isə gecələmələrinə şərait yaratmaq idi. Bu tipli tikintilər yalnız ibadət məqsədilə nəzərdə tutulmadığından, onların memarlıq quruluşlarında müxtəliflik mövcud idi.

Alban dövrünün ən mürəkkəb tikililəri adətən bazilikalar və monastırlardır. Monastırlar və bazilikalar, kilsə və sovmələrdən fərqli olaraq, iki, üç və hətta dördnefli əzəmətli tikinti quruluşuna malikdirlər. Bu abidələr, kütləvi tədbirlər və dini ibadətlər üçün nəzərdə tutulmuşdur. Onların tikinti üslubu və özünəməxsus xüsusiyyətləri Şərq xristianlığı memarlığından kəskin şəkildə fərqlənir. Ermənilərin işğal etdiyi Azərbaycan ərazilərində bu tip abidələrin hamısını erməni kilsələri kimi təqdim etmələri ciddi ziddiyyət təşkil edir [6, s.42.].

Zəngəzurun ən böyük və ən səfalı rayonlarından biri olan Qarakilsə barədə F. İsmayılov qeyd edib: "Bu bölgədə 1918-ci ilə qədər 76 kənd mövcud olub. Onlardan 61-də türk tayfaları, 15-də isə albanlar yaşamışdır. Əsasən Sovet hakimiyyətinin bərqərar olmasından sonra, Qarakilsəyə xarici ölkələrdən erməni axını başlamışdır. Rayon mərkəzindən 15 kilometr aralıda, Salvartı dağının ətəyində yerləşən Cəmərdli Qarakilsənin ən böyük türk kəndlərindən biri idi. Məlumdur ki, Zəngəzur əvvəllər Gəncə quberniyasının qəzası olmuşdur. 1920-ci ildən sonra Zəngəzurun Qafan, Gorus, Qarakilsə və Mehri bölgələri Sovet rəhbərliyi tərəfindən yenicə yaradılmış Ermənistan dövlətinin tərkibinə daxil edilib. Zəngəzurun ermənilərə verilməsinin səbəbləri hələ də dəqiq şəkildə açıqlanmayıb. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 389 məscid fəaliyyət göstərirdi. İrəvan quberniyasındakı məscidlərin artım dinamikası isə belə olub: 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə isə 382 məscid qeydə alınıb. Bu artım dinamikası bölgədəki müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidəki müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidlərin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbos, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardemaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seydlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulach, Saracı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərmişdir. İrəvan şəhərində isə XX əsrin əvvəlinə qədər Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərmişdir.

İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olmuşdur. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilmiş, yaxud mənşəyi dəyişdirilmişdir. 1988-ci ildə kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında Zəngəzuru tərk etdikdən sonra, burada onlara məxsus yüzlərlə tarixi və maddi-mədəniyyət abidəsi

ermənilər tərəfindən dağıdılıb və məhv edilib. 1988-ci ildə yalnız Zəngəzurda deyil, həmçinin Göyçədə, Dərələyəzdə, İrəvanda. Vedida adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulublar [4, s.122]. Qərbi Zəngəzurun etnik təmizləməyə məruz qalan Gorus, Qafan, Mehri, Qarakilsə (Sisian) rayonlarının tarixi əhəmiyyətli yaşayış evləri, inzibati yaşayış məntəqələri, qəbiristanlıqlar, qəbirüstü abidələr, məscidlər və türbələr tamamilə məhv edilmiş, Alban dövrü kilsə və monastırlar isə formaları dəyişdirilərək yararsız hala salınmışdır. Bu, ermənilərin Azərbaycanın mədəni irsinə qarşı törətdikləri mədəniyyətin soyqırımı faktıdır.

İrəvanda Şərq memarlıq üslubunda inşa edilmiş 8 hamam mövcud idi: Şəhər, Zal xan. Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli və Kərim bay hamamları. İrəvanın mərkəzindəki Respublika meydanının yerləşdiyi yerdə, əvvəlki Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, muğamat məclislərinin keçirilməsi üçün xüsusi otaq ayrılmışdı.

XIX əsrin sonları və XX əsrin əvvəllərində İrəvan şəhərində azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda məşhur olan bu küçələr arasında Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bay, Kotan, Dükanlı, Sallaxlar və digər küçələri xüsusi qeyd etmək lazımdır.

İrəvan və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, bunlardan 772-si şəhər ərazisində yerləşirdi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan və Kərpicxana kimi bağlar öz ad-sanı ilə İrəvandan çox uzaqlara qədər tanınmışdır. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş formada Avropaya ixrac edilirdi. Şəhər və onun ətrafında 45 dəyirman fəaliyyət göstərirdi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan və Doqquz dəyirmanları İrəvanın ən böyük dəyirmanları hesab olunurdu.

Tarixi ədəbiyyatda İrəvan şəhərində təxminən 15 məscidin və iki erməni kilsəsinin adı qeyd olunur. Göy məscid (Hüseynəli xan məscidi kimi də tanınır), Qala məscidi (Sərdar və ya Abbas Mirzə Məscidi), Şah Abbas məscidi, Təpəbaşı məscidi, Zal Xan məscidi (Şəhər Məscidi adı ilə də tanınır). Sərtib Xan məscidi, Hacı Novruzəli bəy məscidi, Dəmirbulaq məscidi, Hacı Cəfər bəy məscidi, Rəcəb Paşa məscidi, Məhəmməd Sərtib Xan məscidi və Hacı İnam məscidi kimi tikililərin minarələri İrəvanın müsəlman şəhəri olmasının göstəricisi idi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-bir dağıdılmışdır. Cənubi Qafqazın ən böyük məscidi olan Göy məscid İrəvan şəhərinin Tarix Muzeyi kimi istifadə olunmuş, Zal Xan məscidi isə rəssamların sərgi salonuna çevrilmişdir. Yalnız. Dəmirbulaq məscidi 1988-ci ilə qədər ibadət məqsədilə fəaliyyət göstərmişdir. Lakin hazırda həmin məscid də tamamilə məhv edilmiş, onun yerində hündürmərtəbəli bina inşa edilmişdir. Şəhərdəki məscidlərlə yanaşı, Poğos-Petros və Katoğke kilsələri də mövcud olmuşdur. Bu kilsələr vaxtilə xristian missionerlərinin vəsaiti hesabına tikilmiş və məqsəd ermənilərin şəhərə köçünü təmin etmək olmuşdur. 1918-ci ildə Cənubi Qafqazda ilk dəfə erməni dövləti Ermənistan Respublikası yaradıldığı zaman, Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İrəvan şəhərinin paytaxtı kimi ermənilərə güzəşt edilməsi barədə qərar qəbul etmişdir.

XX əsrin əvvəllərinə qədər İrəvan qalası, onun daxilində yerləşən Xan sarayı və Abbas Mirzə məscidi şəhərin tarixi-memarlıq inciləri hesab olunurdu. Lakin erməni vandalları tədricən İrəvan qalasını və onun daxilində yerləşən bütün tarixi-memarlıq abidələrini məhv etmişlər. 1924-cü ildə İrəvan şəhərinin baş planı hazırlanıb həyata keçirilməyə başlandıqdan sonra şəhərdə azərbaycanlılara məxsus tarixi-memarlıq baxımından əhəmiyyətli olan bütün abidələr bir-bir dağıdılmışdır. Bu prosesin məqsədi İrəvanı gələcəkdə erməni şəhəri kimi təqdim etmək olmuşdur.

XX əsrin 30-40-cı illərində İrəvan şəhərinin mərkəzindəki azərbaycanlı məhəllələri mövcudluğunu qoruyurdu. Ermənilər XIX əsrin əvvəllərindən etibarən İrəvanda məskunlaşmağa başlamış və nəticədə erməni məhəllələri azərbaycanlı məhəllələrini əhatə etmişdi. 50-60-cı illərdə isə azərbaycanlıların kompakt şəkildə yaşadıqları məhəllələr və onların qədim qəbiristanlıqları yeni tikililər inşa etmək bəhanəsilə məhv edilərək yer üzündən silindi.

Azərbaycanlılara qarşı 1905-1906-cı illər kütləvi qırğınları, 1918-1920-ci illər soyqırımı, 1948-1953-cü illər və 1988-1989-cu illər deportasiyaları İrəvan şəhərinin azərbaycanlı simasını tamamilə

ermənilərin xeyrinə dəyişdirdi. Bu hadisələr nəticəsində İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izləri silindi və ardınca azərbaycanlı etnik kimliyi yox edilərək monoetnik erməni şəhəri yaradıldı [7, s.6]. Hazırda ermənilər tarix kitablarından və dərsliklərdən azərbaycanlıların izlərini silməyə çalışırlar.

Bu gün Ermənistan ərazisində azərbaycanlılara məxsus yalnız iki tarixi-memarlıq abidəsi qalmışdır. Bunlardan biri İrəvan şəhərindəki Göy məscidi, ermənilər tərəfindən "fars məscidi" kimi təqdim edilir, digər isə İrəvan yaxınlığındakı Əmir Səəd məqbərəsi, "türkmən abidəsi" kimi qələmə verilir. Ermənistan hökumətinin qərarına əsasən, azərbaycanlıların qəbiristanlıqlarının "heç bir əhəmiyyət daşımadığı" bəhanəsiylə qorunmaması qərara alınmışdır. Erməni vandalları azərbaycanlılara məxsus qəbiristanlıqları sistemli şəkildə dağıdırlar.

Erməni vandalları yalnız azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə kifayətlənməyib, eyni zamanda onlara məxsus toponimlərə qarşı da soyqırımı həyata keçirmişlər.

Monoetnik erməni dövlətində əvvəllər azərbaycanlıların yaşadıqları 703 yaşayış məntəqəsinin adları dəyişdirilərək ermənileşdirilmişdir. Ermənilər özlərini dünyaya "qədim xalq", "sivil xalq" kimi təqdim etməklə, əslində azərbaycanlıların mədəni irsinə qarşı barbarlıq və vandalizm nümunəsi göstərirlər.

Ağadədə qəbiristanlığı 1950-1980-ci illərdə Zəngibasar mahalının (indiki Masis rayonu) ən mötəbər ziyarətgahlarından biri olmuşdur. Ağadədə ocağı, Uluxanlı, Həbilkənd, Seyidkənd və Sarvanlar kəndlərinin əhatəsində, Qulucan kəndinin yaxınlığında, Qarasu çayının kənarında yerləşirdi. Buraya yalnız müsəlmanlar deyil, bəzən xristianlar da ziyarətə gəlirdilər. 1950-ci illərə qədər burada yalnız bir qəbir mövcud olmuş, insanlar onu pir kimi ziyarət edirdilər. Deyilənlərə görə, gecələr bu yerdə işıq yanar, amma yaxınlaşanda itərdi. 1950-ci illərdə burada bina tikilmiş və ətrafında yanmış ağaclar var idi. İnsanlar o ağacların kömüründən istifadə edərək şəfa tapırdılar. Get-gedə ətraf kəndlərdən, hətta İrəvan şəhərindən imkanı olan insanlar öz əzizlərini bu müqəddəs ocağın ətrafında yaranmış qəbiristanlıqda dəfn edirdilər. Təəssüf ki, 1988-ci ildə Qərbi Azərbaycan türklərinə qarşı törədilən soyqırımı nəticəsində bu müqəddəs ocaq da ermənilər tərəfindən dağıdılmışdır.

Ağudi abidəsi Sisyan rayonunun (keçmiş Zəngəzur qəzasının Qarakilsə nahiyəsi) Ağudi kəndində, Sisyan şəhərindən 5 km məsafədə, Ağudi-Sisyan yolunun kənarında yerləşir. VII əsrdə tikilmiş bu qəbirüstü abidə, 1400 ildən çox bir tarixə malikdir və indiyədək qorunub saxlanılmışdır. Ağudi abidəsi üç pilləli və daha doğrusu, üç mərtəbəli quruluşa malikdir. Abidənin birinci mərtəbəsi geniş bir meydanı xatırladır. Bu meydanın altında isə iki giriş qapısı olan tağvari kiçik mağara yer alır və bu xüsusiyyət diqqəti cəlb edir. Meydançanın ətrafında kiçik bir hasar ilə əhatə olunmuş və uçulub dağılmış qəbir yerlərinin nişanələri son dövrlərə qədər qorunub saxlanılmışdır. Aqudi abidəsinin ikinci mərtəbəsi yan tərəfdən iki dördbucaqlı sütundan, ortada isə səkkizguşəli sütundan ibarətdir. Hər iki kənar sütun, tağvari hörgü vasitəsilə orta sütunla birləşmişdir. Abidənin üçüncü mərtəbəsi isə gözəl memarlıq quruluşuna malik üç sütundan ibarətdir. Ağudi kondi, Sisyan rayonunun ən qədim azərbaycanlı kəndlərindən biri olub, amma Ermənistan parlamentinin qərarı ilə adı dəyişdirilərək Aqitu qoyulmuşdur. Hazırda ermənilər bu abidəni qədim erməni abidəsi kimi təqdim etməyə çalışırlar.

Aşağı Şorca qəbiristanlığı İrəvan quberniyasının Novo-Bayazid qəzasında, sonralar Basarkeçər (Vardenis) rayonunda yalnız azərbaycanlıların yaşadığı bir kənddə yerləşirdi. 1918-ci ildə ermənilər Aşağı Şorcada kütləvi qırğınlar törətmişlər. 1988-ci ilin noyabr-dekabr aylarında isə Ermənistan, mövcud olan bütün azərbaycanlı kəndlərini tarixi-etnik torpaqlarından deportasiya etmişdir. Hazırda digər azərbaycanlı kəndləri kimi Aşağı Şorca kəndinin qəbiristanlığı da dağıdılmış və kənd tamamilə xarabalığa çevrilmişdir.

Aşıq Ələsgərin qəbirüstü abidəsi Basarkeçər rayonunda yerləşir. Azərbaycan aşıq sənətinin böyük nümayəndələrindən olan Aşıq Ələsgər 1821-ci ildə İrəvan xanlığının Göyçə mahalının Basarkeçər nahiyəsinin (1969-cu ildən Vardenis rayonu) Ağkilsə kəndində anadan olmuşdur. Fitri şairlik istedadına malik olan Ələsgər böyük ustad Aşıq Alının şəyirdi olmuş və ondan aşıqlıq sənətinin sirlərini öyrənmişdir. Aşıq Ələsgər dərin biliyi, böyük zəkası və geniş dünyagörüşü ilə seçilən bir sənətkar olmuşdur. Məşhur rus şairi Yakov Polonski 19-cu əsrin 40-cı illərində Aşıq Ələsgərlə görüşmüş və onun haqqında "Закавказский Вестник" qəzetində xüsusi bir məqalə dərc etmişdir.

1918-ci ildə erməni silahlı dəstələri Göyçə mahalını işğal etmiş və Ermənistanda sovet hakimiyyəti qurulana qədər Aşıq Ələsgər Kəlbəcər rayonunda qaçqınlıq həyatı yaşamışdır. Aşıq Ələsgər 1926-cı ildə doğulduğu kənddə vəfat etmişdir. 1972-ci ildə isə aşığın 150 illik yubileyi dövlət səviyyəsində qeyd edilmiş və onun məzarı üzərində qəbirüstü abidə ucaldılmışdır. Ermənilər 1935-ci ildə Ağkilsə kəndinin adını dəyişdirərək Azat qoymuşlar. 1988-1989-cu illərdə isə həmin kəndin sakinləri Ermənistandan deportasiya edildikdən sonra erməni vandalları Aşıq Ələsgərin qəbirüstü abidəsini də dağıtmışlar.

Dəmirbulaq Məscidi. Vaxtilə yalnız azərbaycanlıların yaşadığı İrəvan şəhərinin Dəmirbulaq massivində XX əsrin əvvəlində üç məscid qeydə alınmışdır. Bu məscidlər Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidi adlanırdı. Dəmirbulaq məscidi, Gedər çayı üzərindəki körpünün yaxınlığında yerləşdiyinə görə, "Körpüqulağı məscidi" kimi də tanınmışdır. Lakin bu məscidlərdən ikisi Hacı Novruzəli bəy və Hacı Cəfər bəy məscidləri 1930-cu ildə İrəvan şəhərinin baş planı çərçivəsində dağıdılmışdır.

İrəvan şəhərində 1988-ci ilədək fəaliyyət göstərən yeganə məscid Çətirli məscid və ya yerləşdiyi ərazinin adına uyğun olaraq Dəmirbulaq məscidi olaraq tanınırdı. Məscidin üzərindəki kitabədə, hicri təqvimi ilə 1327-ci ildə (miladi təqvimi ilə 1909-cu ildə) inşa edildiyi göstərilmişdir. Məscidin minarəsi olmamış, bunun əvəzində binanın damında 1,5-2 metr hündürlüyündə kvadrat şəklində açıq hava meydançası tikilmiş və onun üzərində dəmir barmaqlıqlarla əhatələnmiş məhəccər quraşdırılmışdı. Dörd tərəfi açıq olan məhəccərin üstü dəmir təbəqə ilə örtüldüyündən bu məscid Çətirli məscid adlandırılmışdır. Həmin məscid rəsmi sənədlərdə Dəmirbulaq məscidi olaraq qeydə alınmışdır. 1988-ci il fevralın 23-də erməni vandalları İrəvan şəhərində yerləşən Dəmirbulaq məscidini və M.F.Axundov adına 9 nömrəli azərbaycanlı orta məktəbin binasını yandırmışlar. 1990-cı ildə isə Dəmirbulaq məscidi tamamilə yerlə-yeksan edilmiş və onun yerində hündürmərtəbəli yaşayış binası inşa edilmişdir.

Əmir Səəd məqbərəsi. İrəvan şəhəri və onun ətrafında azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrindən yeganə salamat qalan abidə, İrəvan-Eçmiədzin yolunun üstündə yerləşən Cəfərabad kəndindəki Əmir Səəd məqbərəsidir. Bu məqbərə Qaraqoyunlu əmirlərindən olan Əmir Səədin oğlu Pir Hüseyn tərəfindən atasının məzarı üzərində ailə türbəsi kimi 1413-cü ildə inşa etdirilmişdir.

Bu abidəni digər orta əsr abidələrindən fərqləndirən əsas cəhət onun kərpicdən deyil, yerli qırmızı tuf daşdan inşa edilməsidir. İrəvandakı Göy məsciddə aparılan təmir-bərpa işlərindən sonra, rəsmi İrəvan dairələri məscidi "İran məscidi" və ya "Fars məscidi" adlandırdıqları kimi, Cəfərabad kəndindəki orta əsrlərə aid bu məqbərəni də "Türkmən məqbərəsi" adlandırmışlar. Əmir Səəd məqbərəsi hazırda "Türkmən əmirləri ailəsinə məxsus mavzoley" adı altında Ermənistanda qorunan tarixi abidələr siyahısına daxil edilmişdir. Cəfərabad kəndinin adı isə ermənilər tərəfindən 1946-cı ildə dəyişdirilərək Arqavand adlandırılmışdır.

Göy məscid. İrəvan şəhərini təsvir edən səyyahların və tədqiqatçıların əsərlərində Göy Məscid həm miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi təsvir edilir. Şərq memarlığının nədir nümunələrindən olan Göy Məscidin inşasına 1760-cı ildə başlanılmış və 1765-ci ildə Hüseynəli xanın hakimiyyəti dövründə tamamlanmışdır.

Məscid, 1616-cı ildə Şah Abbas dövründə Gəncədə inşa edilən Cümə məscidinə bənzədiyi üçün xüsusi diqqətə layiqdir. Onun ölçüləri 97,2 x 66 metr idi. Məscidin adı günbəzinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlı idi. Məscidin həyətində fəvvarəli daş hovuz tikilmiş və ətrafına sıx kölgəli ağaclar əkilmişdir ki, bu da məscidə xüsusi estetik və funksional dəyər qatmışdır.

1936-cı ildən etibarən Göy məscidin binası İrəvan şəhər Tarix Muzeyi kimi fəaliyyət göstərmişdir. İkinci Dünya müharibəsinin başlaması ilə məscid müvəqqəti olaraq hərbi sursat anbarı kimi istifadə edilmişdir. Müharibədən sonra məscid müxtəlif məqsədlərlə istifadə olunmuş, burada bir müddət Təbiət Muzeyi yerləşmişdir. 1952-ci ildən isə məscidin kiçik ibadət zalı astronomiya həvəskarları üçün planetari kimi fəaliyyət göstərməyə başlamışdır. 1991-ci ildə Ermənistanın müstəqilliyini əldə etməsi və müsəlman ölkələri ilə diplomatik münasibətlərin qurulması nəticəsində Göy məscidinin yenidən məscid kimi fəaliyyət göstərməsi zərurəti yaranmışdır. Buna görə də 1991-ci ildə Təbiət Muzeyi, 1994-cü ildə isə Tarix Muzeyi məscid kompleksindən çıxarılmışdır. 1995-ci ildə İran ilə Ermənistan arasında imzalanan müqavilə əsasında Iran hökuməti Göy məscidinin bərpası və yenidən qurulması üçün maliyyə məsuliyyətini öz üzərinə götürmüşdür. Məscidin bərpa işləri 2006-cı ildə tamamlanmışdır.

Rekonstruksiya işləri məscid kompleksinin yalnız cənub-qərb və şimal hissəsində aparılmışdır. Bu işlər çərçivəsində Göy məscidin 24 metrlik minarəsi, 28 köşkü (hücrə), kitabxanası, böyük zalı, günbəzi və həyəti yenidən qurulmuşdur. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" adı ilə təqdim edirlər. Bu isə, məscidin tarixi və mədəni əhəmiyyətini kölgədə qoymaq cəhdi kimi qiymətləndirilə bilər.

Güllübulaq Qəbiristanlığı - Güllübulaq kəndi. Qərbi Azərbaycanın Amasiya (Ağbaba) rayonunun ən böyük kəndlərindən biri olmuşdur və burada 1988-ci ilə qədər azərbaycanlılar yaşamışdır. Lakin 1988-ci il deportasiyasından sonra Güllübulaq kəndində Gürcüstanın Boqdanovka rayonundan gələn ermənilər məskunlaşmışlar. Kənd Türkiyənin Qızıldaş (indiki Süngüdərəsi) kəndi ilə sərhəddə yerləşir. Kənddə bir çox əlamətdar məkan və toponimlər mövcud olmuşdur. Məsələn, Koroğlu mağarası, Nigar dərəsi və Nəbi çayını kimi xalq qəhrəmanlarının adları ilə bağlı yer adları bu ərazidə var idi. Kənddə həmçinin məscid, pirlər və ziyarətgahlar mövcud idi. Əhalinin özünəməxsus folkloru və adətləri də xüsusi əhəmiyyətə malik idi. 2007-ci ildə ermənilər tərəfindən kəndin adı dəyişdirilərək Bürakı olaraq təyin edilmişdir.

Hacı Novruzəli bəy məscidi. İrəvan şəhərindəki Hacı Novruzəli bəy məscidi XVIII əsrin ikinci yarısında Qara Seyid adlı şəxs tərəfindən inşa edilmiştir. Məscid, şəhərin Dəmirbulaq massivindəki Hacı Novruzəli məhəlləsində (indiki dəmiryol vağzalı rayonunda) yerləşdiyindən, məhəllənin adı ilə Hacı Novruzəli bəy məscidi adlandırılmışdır. Bu məhəllədə XX əsrin əvvəllərinə qədər bir nəfər də erməni yaşarmamışdır. Tək minarəli olan bu məscid, XX əsrin 30-cu illərində erməni vandalları tərəfindən dağıdılaraq tamamilə məhv edilmişdir.

Rəcəb Paşa məscidi. 1724-cü ildə Osmanlı qoşunları İrəvanı ələ keçirdikdən sonra türk sərkərdəsi Rəcəb Paşa şəhərin inkişafı üçün bir sıra mühüm tədbirlər həyata keçirmişdi. Onun tapşırığı ilə 1725-ci ildə İrəvan qalasında yeni bir məscid inşa edilmişdi. Bu məscid, onu inşa etdirənin şərəfinə "Rəcəb Paşa məscidi" adlandırılmışdır. Məscid düzgün paralelepiped formasında və sferik günbəzlə tikilmişdi. Şərq memarlıq üslubunun özəlliklərini əks etdirən məscid, həndəsi ornamentlərlə bəzədilmişdi. Rəcəb Paşa məscidi həm memarlıq strukturu, hom də bəzək detalları ilə dövrün mühüm abidələrindən biri olmuşdu.

İrəvan qalasının 1827-ci il oktyabrın 1-də rus qoşunları tərəfindən işğalından bir gün sonra Rəcəb Paşa məscidinin günbəzindəki ay-ulduzu çıxarıb yerində xaç və kilsə zəngi asaraq onu rus pravoslav kilsəsinə çevirmişdilər. Daha sonra məscidin xarici quruluşunda da dəyişikliklər edilmiş, fasadına silindrik sütunlar əlavə edilmiş, damına örtük vurulmuş və xristian məbədi formasına salınmışdı. Rəcəb Paşa məscidi 1930-cu illərdə İrəvan şəhərinin baş planı çərçivəsində dağıdılmışdır.

Saral qəbiristanlığı Saral kəndi. Saral kəndi İrəvan quberniyasının Aleksandropol qəzasının Böyük Qarakilsə nahiyəsində yerləşən ən böyük kəndlərdən biri olmuşdur. Kənd sonradan Hamamlı (indiki Spitak) rayonunun tərkibinə daxil edilmişdir və rayon mərkəzindən 7 km şərqdə, Pəmbək çayının sağ sahilində yerləşir. Kəndin ilk adı Sarallı olub, 1988-ci ildəki deportasiya nəticəsində azərbaycanlılar zorla Ermənistan dövləti tərəfindən köçürülmüşdür. Deportasiya prosesindən sonra Saral kəndinin qəbiristanlığı erməni vandalları tərəfindən dağıdılmışdır. 1991-ci ildə isə kəndin adı dəyişdirilərək Nor Xaçakar qoyulmuşdur.

Səlim (Şah Abbas) karvansarası Dərələyəz mahalının Keşişkənd (06.12.1957-ci ildən Yeğeqnadzor) rayonu ərazisində, Ələyəz dağının Səlim aşırımında, 2410 metr yüksəklikdə, Ağkənd (03.07. 1968-ci ildən Ağcanadzor) kəndinin yaxınlığında yerləşir. Səlim aşırımının adı ilə Səlim karvansarası el arasında Şah Abbas karvansarası adlanır. Karvansara yonulmuş bazalt daşdan inşa edilmişdir və iki əsas binadan ibarət olmuşdur. Uzunluğu 35,5 m, eni isə 5 m olan əsas bina şimaldan şərqə doğru uzanır. İkinci bina, 31,5 m uzunluğunda və 14,7 m enində olub, birinci binaya perpendikulyar şəkildə tikilmişdir. Bu karvansara ticarət yollarında dayanan karvanlar üçün çox əhəmiyyətli bir sığınacaq olmuşdur.

Karvansarasının giriş qapısının üst hissəsində ərəb əlifbası ilə yazılmış bir kitabə yer alır.

Bu kitabədə qeyd olunur ki, karvansara 1328-1329-cu illərdə, Elxani dövlətinin hökmdarı Əbu Said Xan Bahadur tərəfindən inşa etdirilmişdir. Əbu Said Xan Bahadur, Çingiz xanın varislərindən olub, 1316-1335-ci illər arasında Elxani dövlətinin taxtında əyləşmişdir. Kitabə karvansaranın tarixini təsdiqləyən əhəmiyyətli bir mənbədir. Girişin üst hissəsindəki kitabə yarımdairə formasında, eni 2 m və orta hündürlüyü 1 m olan bir ölçüdədir.

Karvansaranın yaxınlığında yerləşən Ağkənd kəndində 1918-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. Kəndə ilk ermənilər yalnız 1923-1925-ci illərdə köçürülmüşdür. Lakin erməni tərəfi bu karvansaranı erməni abidəsi kimi təqdim etməyə çalışır, xüsusi olaraq "erməni knyazı" Çesare Orbelyan dövründə inşa edildiyini iddia edirlər.

Sərdar məscidi (bəzən Abbas Mirzə məscidi olaraq da adlandırılır) İrəvan qalasında yerləşən və XIX əsrin əvvəllərində inşa edilmiş nadir memarlıq abidəsidir. Tədqiqatlar göstərir ki, bu məscid müxtəlif dövrlərdə müxtəlif adlarla tanınmışdır. Çar Rusiyasının işğalından əvvəlki dövrlərdə, İrəvan qalasının yaxınlığında yerləşən bu məscid "Sərdar məscidi" olaraq tanınırdı. Lakin XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzənin şərəfinə yenidən bərpa olunduğu üçün bəzi sənədlərdə "Abbas Mirzə məscidi" olaraq da qeyd edilmişdir. Məscidin adı dəyişsə də, onun tarixi və memarlıq xüsusiyyətləri əhəmiyyətli bir mədəni irs olaraq qalır. Lakin İrəvan şəhərindəki azərbaycanlılara məxsus digər mədəniyyət abidələri kimi, bu məscid də erməni vandalları tərəfindən tədricən hissə-hissə dağıdılmışdır.

1864-cü ildə İrəvan qalasından rus qoşunlarının hərbi-istehkam məqsədilə istifadəsinə son qoyulduqdan sonra qaladakı tarixi-memarlıq abidələri, o cümlədən Sərdar və ya Abbas Mirzə məscidi ciddi dağıntılara məruz qalmışdır. XX əsrin əvvəllərində Sərdar məscidində Türkiyədən gələn erməni qaçqınları məskunlaşdırılmışdır.

Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülmüşdür. Son vaxtlara qədər Sərdar məscidinin 2-3 metr hündürlüyündə bir divar qalığı qalmışdı. Ermənistan hökuməti məscidin qalığının görünən hissəsini 2007-ci ildə Avropa Şurasına təqdim edərək "qorunan tarixi abidələr" siyahısına daxil etmişdir. Lakin erməni vandalları Sərdar məscidinin "qorunan" divar qalığını 2014-cü ilin noyabr ayının ortalarında yer üzündən silmişdir.

Təpəbaşı məscidi İrəvan şəhər idarəsinin (upravasının) üzvü və İrəvan xanlarının nəslindən olan Abbasqulu xan İrəvanski tərəfindən tikilmişdir. Onun evi də həmin məhəllədə yerləşirdi. Hazırda erməni ailələri tərəfindən yaşayış yeri kimi istifadə edilən Abbasqulu xanın evini hələ də ermənilər "Xanın evi" adlandırırlar. Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı ildə uçurulmuşdur. Divarlarının qalınlığı 1,5 metr olan məscidin içərisindəki imam otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında əvvəllər bir çayxana mövcud idi, burada müsəlmanlar yığışıb çay içərdilər. Hal-hazırda isə məscidin həyətində və ətrafında ermənilər tərəfindən tikilmiş çoxsaylı gecəqondular var.

Zal xan məscidi. İrəvanın Qala ilə Təpəbaşı massivləri arasında yerləşən Köhnə şəhər adlanan hissəsindəki məscidlərdən biri Şəhər və ya Zal xan məscidi adlanırdı. Məscidin üzərində ərəb əlifbası ilə Azərbaycan dilində yazılmış kitablarda məscidin hicri 1098-ci ildə - yəni miladi təqvimi ilə 1687-ci ildə inşa edildiyi qeyd olunur. Bu məscid 1679-cu il zəlzələsindən sonra tikilmişdir. Həmin dövrdə İrəvan bəylərbəyliyinin hakimi olan Zal xan şəhərdəki tikililərin bərpası üçün xeyli əmək sərf etmişdi.

Xarici görünüşünə görə Göy məscidə bənzəyən Zal xan məscidinin də dincəlmək üçün həyəti və sərin bağçası olmuşdur. Tədqiqatçılara görə, Zal xan və ya Şəhər məscidi İrəvan şəhərinin mərkəzində, hazırda Respublika meydanı adlanan ərazidə yerləşirdi. 1928-ci ildə Şəhər məscidinin böyük zalı sökülərək onun yerində "Yerevan" mehmanxanası inşa edilmişdir. 1999-cu ildə rekonstruksiya edildikdən sonra həmin mehmanxana "Golden Tulip Hotel Yerevan" adlanır. İkimərtəbəli binası və çoxlu hücrələri olan Zal xan məscidinin mədrəsəsinin təyinatı İkinci Dünya müharibəsindən sonra dəyişdirilmişdir. Hazırda həmin binada Rəssamlar Evinin sərgi salonu yerləşir.

Göründüyü kimi, Zal xan məscidi Azərbaycanın tarixini və mədəniyyətini özündə yaşadan mühüm abidə olmuşdur. Ermənilər isə bu tarixi mirası məhv etməklə yanaşı, mədəni irsimizin silinməsi istiqamətində addımlar atmışdır.

Nəticə. Qərbi Azərbaycanda yerləşən tarixi abidələr bu regionun zəngin mədəniyyətini, tarixini və mədəni irsini əks etdirən qiymətli nümunələrdir. Zəngəzur, Qarabağ, Dərələyəz və digər bölgələrdəki memarlıq abidələri qədim dövrlərdən başlayaraq burada yaşamış müxtəlif mədəniyyətlərin izlərini qoruyub saxlamışdır. Qədim İpək Yolu üzərində yerləşən körpülər, karvansaraylar, məscidlər, monastırlar və digər memarlıq nümunələri, burada yaşamış xalqların inkişafını və tarixi proseslərini nümayiş etdirir.

Alban-xristian abidələri o dövrün dini və mədəni dünyagörüşünü əks etdirərək regionun tarixi zənginliyini üzə çıxarır. Lakin 18-ci əsrdən başlayaraq ermənilərin bu ərazilərdə sıx məskunlaşması,

tarix və mədəni irsin təhrif edilməsi və ermənileşdirilməsi istiqamətində sistematik cəhdlər göstərilmişdir. Bu proses nəticəsində abidələr üzərindəki türkdilli xalqlara aid simvollar dəyişdirilmiş, yazılar saxtalaşdırılmış və mədəniyyətlərarası əlaqələrin izləri silinməyə çalışılmışdır. Xüsusilə İrəvan şəhərində yerləşən məscidlər, məsələn, Göy məscid, Zal xan məscidi, Sərdar məscidi və digər abidələr şəhərin mədəni irsinin mühüm hissəsini təşkil edirdi. Göy məscid və digər məscidlər həm memarlıq üslubuna, həm də inşasına görə İslam dünyasının mühüm abidələri arasında yer alırdı. Lakin XIX və XX əsrlərdə, xüsusən Sovet dövründə İrəvanın memarlıq və mədəniyyət irsi, xüsusilə Azərbaycanlılara məxsus abidələr erməni vandalları tərəfindən məhv edilmiş və dəyişdirilmişdir. Bu dəyişikliklərə əsasən, bir çox abidələr və məscidlər ya tamamilə dağıdılmış, ya da məqsədli olaraq yenidən qurularaq başqa bir mədəniyyətə aid göstərilmişdir. Bunun nəticəsində, bir çox abidələrin tarixləri, arxitekturaları və əhəmiyyəti tamamilə itirilmişdir. Bu abidələrin qorunması və beynəlxalq səviyyədə təbliği həm regionun tarixi irsinin bərpası, həm də dünya mədəniyyətinin zənginləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu həm də Qərbi Azərbaycanın qədim mədəniyyətinin əsl kimliyini qorumaq və gələcək nəsillərə çatdırmaq baxımından vacib addımdır.

ƏDƏBİYYAT

1. Axundov A. A. Torpağın köksündə tarixin izləri. Bakı, Gənclik, 1983, 136 s.
2. Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı, Səda, 2005.
3. Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.
4. Ələkbərli Əziz. Qərbi Azərbaycan. II cild, Zəngibasar, Gornibasar və Qırxbulaq mahalları. Bakı, Ağrıdağ, 2002, 736 s.
5. Musa Kalankatuklu, Albaniya tarixi, tərc. Z.Bünyadov, Bakı, Elm, 1993, s. 16-220.
6. Mirzəyev Hasan. Qərbi Azərbaycan Dərələyəz mahalı. Bakı, Elm, 2004, 858 s.
7. Əsgər Zeynalov. İrəvan Xanlığı gerçəkliyin aydınlığı. Bakı, Mütərcim, 2016, 656 s.

ХАТИРА АГАЕВА
Доктор философии по истории
Старший научный сотрудник Института истории и этнологии имени Аббасгулу Ага Бакиханова Национальной академии наук Азербайджана

ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

Западный Азербайджан, являясь регионом, богатым как с точки зрения истории, так и культурного наследия, на протяжении различных эпох был одним из центров, где пересекались культуры и цивилизации. Памятники, мечети, мавзолеи, дворцы и другие архитектурные образцы в этом регионе отражают его богатую историю и культурное наследие. Сохранение исторического и культурного наследия стало одной из главных задач современности. В данной статье рассматриваются исторические и архитектурные особенности памятников Западного Азербайджана, их сохранность, влияние геноцида армян и депортаций на судьбу памятников. Также затрагиваются исторические факты, связанные с территориальными претензиями армян в Южном Кавказе, исторические изменения, произошедшие в Ереване, Зангезуре и Дерелаязский округ, и представлены значительные сведения о разрушении культурного наследия.

Ключевые слова: Западный Азербайджан, исторические памятники, албанская архитектура, армянский вандализм.

KHATIRA AGHAYEVA
Doctor of Philosophy in History
Senior Researcher of the Institute of History and Ethnology of the Azerbaijan National Academy of Sciences named after Abbasgulu Agha Bakikhanov

HISTORICAL MONUMENTS IN WESTERN AZERBAIJAN

Western Azerbaijan, as a region rich in both historical and cultural heritage, has been one of the central points where various cultures and civilizations intersected throughout history. The monuments, mosques, mausoleums, palaces and other architectural examples in this area reflect the region's rich

history and cultural legacy. The preservation of historical and cultural heritage has become one of the most critical issues of the modern era. This article examines the historical and architectural features of the monuments in Western Azerbaijan, their preservation and the impact of the Armenian genocide and deportation events on their fate. Additionally, it delves into historical facts concerning Armenian territorial claims in the South Caucasus and addresses significant historical changes in areas such as Yerevan, Zangezur and Derelayaz, presenting vital information regarding the destruction of cultural heritage.

Keywords: Western Azerbaijan, Historical monuments, Albanian architecture, Armenian.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Nərgiz Quliyeva, t.e.d. Qabil Əliyev.